İPƏK YOLU, No.3, 2017, səh.18-33

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA BEYNƏLXALQ AVTOMOBİL DAŞIMALARININ ƏSAS İQTİSADİ VƏ İDARİ İSTİQAMƏTLƏRİ

**Ramazan Mehmet Dindar, Çingiz Rəhimov**

Bakı Mühəndislik Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
e-mail: dindarramazan@gmail.com, turan.cingiz@mail.ru

**Xülasə**. Məqalədə Azərbaycan ilə Türkiyə arasında beynəlxalq avtomobil daşımalarının kvota çərçivəsində mübadilə edilmiş ikitərəfli, tranzit keçid, 3-cü ölkədən/ölkəyə və BNF-nin çoxtərəfli "İcazə"ləri əsasında həyata keçirilməsi və bu "İcazə"lərin daşımaların ümumi inkişafına təsiri araşdırılır. Bundan başqa, məqalədə Azərbaycan və Türkiyə arasında beynəlxalq avtomobil daşımalarının inkişafının əsas iqtisadi, elmi və administrativ istiqamətləri, habelə beynəlxalq avtomobil daşımalarının ölkələrin iqtisadiyyatındakı rolu və yeri tədqiq olunur.

**Açar sözlər**: avtodaşıyıcı, beynəlxalq avtomobil əlaqələri, icazə blankı, ikitərəfli və tranzit keçid, 3-cü ölkədən/ölkəyə keçid, "İcazə"lərin kvotası, BNF, Ro-Ro daşıma.

## THE MAIN ECONOMIC AND ADMINISTRATIVE DIRECTIONS OF THE INTERNATIONAL AUTOMOBILE CARRYING BETWEEN AZERBAIJAN AND TURKEY

**R.M. Dindar, Ch.H. Rahimov**
*Baku Engineering University, Baku, Azerbaijan*
*Azerbailan Technical University, Baku, Azerbaijan*

**Abstract**. The bilateral and transit crossing on a quota basis of road transports between Azerbaijan and Turkey, from third country to country and on the basis of the multilateral "Permission" of the International Transport Forum, sustainability of transportation by complying and the impact of these "Permissions" on the overall development of transport are investigated in the article. Furthermore, the main economic, scientific and administrative directions of the development of international road transport, as well as the role and place of the international road transport in the economics in discussed.
**Keywords**: carrier, international automobile relations, permission to/from a third country to country, quotes of "Permissions", International Transport Forum (İTF-BNF), Ro-Ro transportation

## ОСНОВНЫЕ ЭКОНОМИЧЕСКИЕ И АДМИНИСТРАТИВНЫЕ НАПРАВЛЕНИЯ МЕЖДУНАРОДНЫХ АВТОМОБИЛЬНЫХ ПЕРЕВОЗОК МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

**Р.М. Диндар, Ч.Х. Рахимов**
*Бакинский Инженерный Университет, Баку, Азерб.,*
*Азерб. Тенический Университет, Баку, Азерб.*

**Резюме**. В статье рассматривается устойчивость международных автомобильных перевозок между Азербайджаном и Турцией на основе двустороннего, транзитного, в/из третьих стран и многостороннего МТФ «Разрешений», которые были обменены в рамках квоты, и влияние этих разрешений на общее развитие транспорта. Кроме того, в статье рассматриваются основные экономические, научные и административные аспекты развития международных автомобильных перевозок между Азербайджаном и Турцией, а также роль и место международных автомобильных перевозок в экономике стран.
**Ключевые слова:** автоперевозчик, международные автомобильные связи, бланк разрешения, двусторонние и транзитные перевозки, перевозки в/из третьих стран, квота «разрешений», МТФ, перевозка Ro-Ro.

## 1. Giriş

Azərbaycan ilə Türkiyə arasında beynəlxalq avtomobil daşımalarının inkişafı və bu daşımaların həyata keçirilməsinin asanlaşdırılması məqsədilə, habelə tərəflər arasında ticarət və iqtisadi münasibətlərin inkişaf etdirilməsi və dəstəklənməsində beynəlxalq daşımalar üzrə əməkdaşlığın mühüm şərt olduğunu nəzərə alaraq, avtomobil yükdaşımalarının iqtisadi və sosial cəhətdən əlverişli işinin təşkil edilməsi olduqca vacibdir.

Beynəlxalq daşımaların həyata keçirilməsində beynəlxalq avtomobil daşımaları sisteminin yüksək potensiala malik olduğunu nəzərə alaraq, beynəlxalq daşımaları tənzimləyən beynəlxalq sazişlərə istinad edərək, Azərbaycan ilə Türkiyə arasında beynəlxalq avtomobil daşımaların mövcud vəziyyəti və bu sahədə rastlaşdıqları çətinliklər araşdırılmış, məsələlərin həlli üçün müvafiq təkliflər irəli sürülmüşdür.

## 2. Beynəlxalq avtomobil daşımaları sahəsində əlaqələr

Azərbaycan avtomobil nəqliyyatı sisteminin beynəlxalq avtomobil nəqliyyatı sisteminə inteqrasiyası, avtonəqliyyat əlaqələrinin və tranzit daşımaların hüquqi bazasının beynəlxalq normalara uyğunlaşdırılması, Asiya, Avropa və əsas dünya bazarları arasında beynəlxalq avtomobil daşımaları sahəsində əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi, yol infrastrukturunun və beynəlxalq logistika mərkəzlərinin xidmətlərinin yaxşılaşdırılması, beynəlxalq yollarda təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, beynəlxalq nəqliyyat bazarlarında milli avtodaşıyıcılarımızın xüsusi çəkisinin və rəqabətlilik qabiliyyətlərinin artırılması respublikamızın avtomobil nəqliyyatı siyasətinin əsas prioritet istiqamətləridir [1, s.3-8].

Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları, o cümlədən tranzit daşımaları Azərbaycan qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq yerinə yetirilir. Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları sahəsində Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinin Azərbaycan ərazisində yerinə yetirilməsini müvafiq icra hakimiyyəti orqanı aidiyyəti dövlət orqanları ilə birlikdə təmin edir.

Barəsində icazə sistemi tətbiq edilən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq daşımalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən "İcazə" blankları əsasında yerinə yetirilir. Azərbaycan ərazisində xarici avtomobil daşıyıcıları tərəfindən ölkədaxili daşımaların yerinə yetirilməsinə yol verilmir. Eyni zamanda, beynəlxalq daşımalarda istifadə edilən avtonəqliyyat vasitələrinin sürücüləri beynəlxalq daşımalara dair beynəlxalq konvensiyalar, sazişlər və digər sənədlər, habelə bu daşımaların xüsusiyyətləri barədə zəruri biliklərə malik olmaq üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş proqram üzrə xüsusi hazırlıq keçməlidirlər [5].

Azərbaycan ərazisində beynəlxalq avtomobil daşımaları "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 14 oktyabr tarixli 141 nömrəli və 1997-ci il 10 yanvar tarixli 6 nömrəli

Qərarları ilə, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 yanvar tarixli 14 nömrəli Qərarı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 nömrəli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə tənzimlənir [5].

Azərbaycan beynəlxalq avtomobil əlaqələri sahəsində inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinə istinad edərək 12 beynəlxalq Konvensiya və Sazişə qoşulmuşdur və onların şərtlərinə və tələblərinə ciddi riayət edir. Azərbaycan hazırkı dövrə qədər 25 ölkə ilə beynəlxalq avtomobil əlaqələri sahəsində ikitərəfli saziş imzalamışdır.

Azərbaycan ilə beynəlxalq avtomobil əlaqələri sahəsində ən çox daşımaların yerinə yetirildiyi ölkə isə Türkiyədir. Qeyd olunmalıdır ki, ölkələrimiz arasında ticarət həcminin artması beynəlxalq avtomobil daşımalarının inkişafına öz müsbət təsirini göstərmişdir. İki ölkə arasında ticarət dövriyyəsinin artmasına uyğun olaraq, daşımaların həcminin yüksəlməsi illər üzrə dinamik artmaqda davam etməkdədir.

### 3. Azərbaycan və Türkiyə arasında həyata keçirilən beynəlxalq avtomobil daşımaları

Azərbaycan və Türkiyə arasında beynəlxalq avtomobil daşımaları 02 noyabr 1992-ci il tarixində imzalanmış (Türkiyə tərəfində 15.09.1994-cü ildə qüvvəyə minmiş, Qanun N-4016) "Azərbaycan Respublikası ilə Türkiyə arasında avtomobil daşımaları haqqında" ikitərəfli Sazişlə, beynəlxalq avtomobil əlaqələrinə dair hər iki Respublikanın qoşulduğu beynəlxalq konvensiya, saziş və protokollardan irəli gələn öhdəliklərlə tənzimlənir. Bu saziş dövlətlərin əraziləri və onların ərazilərindən üçüncü ölkələrə tranzitlə avtobusla sərnişinlərin daşınmasını və (və ya) yük nəqliyyat vasitələri və ya onların kombinasiyaları ilə yüklərin daşınmalarını tənzimləyir [5].

Eyni zamanda, Azərbaycan ilə Türkiyə dövlətlərinin ərazisində qeydiyyata alınan daşıyıcılar tərəfindən yola düşmə və ya təyinat məntəqələri ərazilərində yerləşən razılığa gələn digər tərəf arasında və onların ərazilərindən tranzitlə dəmiryol, su və avtomobil nəqliyyatından istifadə etməklə həyata keçiriləcək beynəlxalq kombinə edilmiş yükdaşımalar sahəsində münasibətlər 2013-cü il noyabrın 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti və Türkiyə hökuməti arasında kombinə edilmiş yükdaşımaları haqqında" sazişlə tənzimlənir.

Ölkələr arasında beynəlxalq avtomobil daşımaları kvota çərçivəsində mübadilə edilmiş ikitərəfli daşımalar və tranzit keçid və 3-cü ölkədən/ölkəyə daşımalar üçün, Beynəlxalq Nəqliyyat Forumunun (BNF-nin) çoxtərəfli "İcazə"ləri əsasında, eyni zamanda hər iki dövlətin daxili qanunvericiliyinə riayət edilməklə həyata keçirilir.

2006-cı ilə qədər Nəqliyyat Nazirlərinin Avropa Konfransı kimi adlanan Beynəlxalq Nəqliyyat Forumu 17 oktyabr 1953-cü il tarixdə Brüsseldə 16 dövlət (Almaniya, Avstriya, Belçika, Böyük Britaniya, Danimarka, İtaliya, İspaniya, İsveç, İsveçrə, Fransa, Lüksemburq,

Niderland, Norveç, Portuqaliya, Türkiyə və Yunanıstan) tərəfindən imzalanmış və 07 yanvar 1954-cü ildə qüvvəyə minmiş Beynəlxalq Konvensiya əsasında yaradılmışdır.

BNF-in əsas məqsədləri - beynəlxalq əhəmiyyəti olan daxili Avropa nəqliyyatının effektiv istifadəsi və səmərəli inkişafı üçün tədbirlərin qəbul edilməsi, üzv-ölkələrin milli orqanlarının daxili nəqliyyat sahəsindəki fəaliyyəti nəzərə alınmaqla daxili Avropa nəqliyyatı ilə məşğul olan beynəlxalq təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və gücləndirilməsidir.

Azərbaycan 1998-ci ilin may ayından bu təşkilata üzv hesab edilir. Azərbaycana məxsus daşıyıcılar digər ölkələrlə (əsasən Avropa ölkələri) yerinə yetirdiyi çoxtərəfli beynəlxalq daşımalarda Beynəlxalq Nəqliyyat Forumu tərəfindən verilən çoxtərəfli İcazələrdən istifadə edir. Eyni zamanda, Türkiyə ilə yerinə yetirilən çoxtərəfli beynəlxalq daşımalarda bu icazələrdən də istifadə edilir.

Ölkələr arasında beynəlxalq avtomobil daşımaları kvota çərçivəsində mübadilə edilmiş "İcazə" anlayışları və digər terminlər bunlardır:

İcazə - Razılığa gələn Tərəflərdən birinin avtonəqliyyat vasitəsinə digər Tərəfin dövlətinin ərazisinə daxil olmaq/ərazisindən çıxmaq və ya Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən tranzitlə keçmək hüququ verən sənəddir;

Xüsusi icazə - iriqabaritli, ağırçəkili nəqliyyat vasitələri ilə daşımaları yerinə yetirməyə, həmçinin ərazisində daşımanın həyata keçirildiyi Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq, təhlükəli yükün daşınmasına hüquq verən sənəddir;

Kombinə edilmiş yükdaşımalar - intermodal daşımaların əsas hissəsinin dəmiryol və ya su nəqliyyatı ilə həyata keçirildiyi, başlanğıc və son daşıma mərhələlərində avtomobil yolundan mümkün qədər qısa istifadə edildiyi daşıma sistemidir;

Daşıyıcı - Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış və qeydiyyata alındığı ölkədə qüvvədə olan milli qanunvericiliyə və qaydalara müvafiq olaraq kirayə götürməklə, haqqı ödənilərək və ya öz hesabına beynəlxalq sərnişin və yüklərin daşınmasını həyata keçirmək hüququna malik olan hər hansı fiziki və ya hüquqi şəxsdir.

Son illər ərzində mübadilə edilmiş ikitərəfli "İcazə"lərin sayı və istifadəsi Cədvəl 1-də verilmişdir.

Cədvəldən göründüyü kimi, bu illər ərzində Azərbaycan avtodaşıyıcıları Türkiyə "İcazə"lərindən orta hesabla 5-8% istifadə etdikləri halda, Türkiyə avtodaşıyıcıları Azərbaycan "İcazə"lərindən 100% istifadə edirlər. Beynəlxalq avtomobil daşımaları təcrübəsində tətbiq edilən paritetlik prinsipinin pozulmasına baxmayaraq, Türkiyə avtodaşıyıcılarının Azərbaycan ərazisinə daxil olmalarının ildən ilə artmasını nəzərə alaraq, kvota çərçivəsində onlara ayrılan "İcazə"lərin sayı 5000 (2011) ədəddən 2016-cı ildə 35000 ədədə (bütünlükdə 40000 ədəd) çatdırılmışdır.

**Cədvəl 1.** Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən beynəlxalq avtomobil daşımaları haqqında məlumat (Mübadilə edilmiş ikitərəfli "İcazə"lərin sayı və istifadəsi)

| **İllər** | **Türkiyə avtodaşıyıcıları (Azərbaycan "İcazə"si)** | | | | | | **Azərbaycan avtodaşıyıcıları (Türkiyə "İcazə"si)** | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **ikitərəfli tranzit keçid** | | | **III ölkədən/ölkəyə** | | | **ikitərəfli tranzit keçid** | | | **III ölkədən/ölkəyə** | | |
| | mübadilə | istifadə | % | mübadilə | istifadə | % | mübadilə | istifadə | % | mübadilə | istifadə | % |
| 2004 | 2500 | 2312 | 92,5 | - | | | 2500 | 127 | 5,1 | - | | |
| 2005 | 2500 | 2379 | 95,2 | - | | | 2500 | 100 | 4,0 | - | | |
| 2006 | 3000 | 2292 | 76,4 | - | | | 3000 | 25 | 0,9 | - | | |
| 2007 | 3000 | 3006 | 100,2 | - | | | 3000 | 211 | 7,0 | - | | |
| 2008 | 3000 | 2828 | 94,3 | - | | | 3000 | 257 | 8,6 | - | | |
| 2009 | 5000 | 5308 | 106,2 | 500 | 504 | 100,8 | 5000 | 340 | 6,8 | 500 | 17 | 3,4 |
| 2010 | 5000 | 4617 | 92,3 | 500 | 491 | 98,2 | 5000 | 236 | 4,7 | 500 | 8 | 1,6 |
| 2011 | 5000 | 5000 | 100,0 | 500 | 500 | 100,0 | 5000 | 317 | 6,3 | 500 | 13 | 2,6 |
| 2012 | 20000 | 20000 | 100,0 | 1500 | 1500 | 100,0 | 20000 | 908 | 5,0 | 1500 | 41 | 2,8 |
| 2013 | 20000 | 20000 | 100,0 | 2500 | 2500 | 100,0 | 20000 | 1971 | 10,0 | 2500 | 107 | 5,0 |
| 2014 | 40000 | 36109 | 90,0 | 1500 | 1434 | 95,0 | 40000 | 3585 | 8,01 | 1500 | 88 | 5,0 |
| 2016 | 35000 | 27526 | 79 | 2000 | 1905 | 95 | 35000 | 6024 | 17 | 2000 | 622 | 31 |
| 2017 (I-VIII) | 35000 | 24086 | 69 | 2000 | 1598 | 79 | 35000 | 5007 | 14 | 2000 | 468 | 23 |

Mənbə: Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin məlumatları.

**Cədvəl 2.** Azərbaycana məxsus daşıyıcıların Türkiyə "İcazə"lərindən istifadəsi

| İllər | **Azərbaycan avtodaşıyıcıları (Türkiyə "İcazə"si)** | |
|---|---|---|
| | ikitərəfli/tranzit keçid | III ölkədən/ölkəyə |
| | istifadə | istifadə |
| 2014 | 4733 | 108 |
| 2015 I-IV | 1903 | 58 |

Mənbə: Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin məlumatları.

Beynəlxalq avtomobil daşımaları üzrə Azərbaycan-Türkiyə Qarışıq Komissiyanın 2015-ci ilin 8-9 dekabr tarixlərində Ankara şəhərində keçirilmiş iclasında mövcud şəraitdə Türkiyə avtodaşıyıcılarına zəruri köməklik göstərilməsi məqsədilə, 2016-ci il üçün

"İcazə"lərin kvota sayının aşağıdakı qaydada müəyyən edilmiş, "İcazə" blanklarının kontingenti aşağıdakı qaydada təyin edilmişdir [9]:

- ikitərəfli daşımalar, giriş, çıxış və tranzit keçid üçün - 35000 ədəd;
- 3-cü ölkəyə/ölkədən daşımalar üçün - 2000 ədəd;
- o cümlədən Türkiyə limanlarından daşımalar üçün - 300 ədəd.

Eyni zamanda, qeyd olunan saylardan başqa daşıyıcıların tələbatı ilə əlaqədar olaraq əlavə "İcazə"lərin mübadilə edilməsi məsələsi mümkündür. Həmçinin, 15-16 oktyabr tarixlərində Bakı şəhərində keçirilən "Bakı-Tbilisi-Qars (BTK) – İpək Yolu Dəhlizinin İnkişafında "Yeni Fürsətlər Mövzusunda Konfrans" çərçivəsində keçirilən görüşdə "İcəzə"lərin kvota sayının daha 10 min ədəd artırılması barədə razılıq əldə edilmişdir.

Nəticə etibarilə, Azərbaycan ərazisinə daxil olan Türkiyə avtodaşıyıcılarının sayı orta hesabla 2004-cü ilə nisbətən 8,0 dəfə artmışdır [2], [9].

Son illər ərzində Türkiyə avtodaşıyıcılarının Azərbaycan ərazisinə daxil olmaları aşağıdakı kimidir:

2011-ci il ərzində - 57187 ədəd;

2012-ci il ərzində - 71554 ədəd;

2013-cü il ərzində - 70152 ədəd;

2014-cü il ərzində - 67321 (DGK-69799) ədəd;

2015-ci il IX ay - 18504 ədəd.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş rüsumları ödəməklə son illər ərzində Azərbaycan ərazisinə daxil olmuş Türkiyə yük avtomobillərinin sayı aşağıdakı kimi olmuşdur:

2011-ci il - 48947 ədəd;

2012-ci il - 47000 ədəd;

2013-cü il - 43645 ədəd;

2014-cü il - 26094 ədəd;

2015-ci il - 41153 ədəd.

Türkiyə avtodaşıyıcılarının 65 %-dən çoxu kvota ilə nəzərdə tutulmuş "İcəzə"lərin sayının az olması səbəbindən müvafiq rüsumları ödəməklə Azərbaycan ərazisinə daxil olurlar. Nəticə etibarilə, qeyd olunan məsələ ölkələr arasında mövcud daşıma potensialından tam faydalanmamağa, daşıyıcılar üçün inzibati maneələrin yaradılmasına və ölkələrin tranzit imkanlarının aşağı düşməsinə səbəb olan amildir. Sözügedən "İcəzə"lərin sayının artırılması və ölkələrin daşımalar sahəsində siyasətlərinə uyğun olduğu halda bu icazələrin tədricən mübadiləsinin aradan qaldırılmasına çalışılmalıdır.

Azərbaycan-Türkiyə beynəlxalq avtomobil daşımaları üzrə dinamikanın daha da inkişafı və iqtisadi-ticarət əlaqələrinin genişlənməsi fonunda mübadilə edilən "İcazə"lərə olan kvotanın tamamilə aradan qaldırılması məqsədəuyğundur. Buna misal olaraq, bir neçə ölkələrlə (Moldova, Gürcüstan və s.) Türkiyənin artıq kvotasız əməkdaşlıq etməsini nümunə göstərmək olar. Əksər Avropa ölkələri hazırda bu yanaşmanı öz ölkələri arasında tətbiq edir,

daha çox daşımalar isə BNF-nin illik və ya aylıq çoxtərəfli icazələri vasitəsilə həyata keçirilir. Bu, daşımaların asanlaşdırılmasına, ölkələr arasında nəqliyyat ləngimələrinin aradan qaldırılmasına, daşımalara dair müvafiq statistik analizlərin və təhlillərin aparılmasının mümkünlüyünə şərait yaratmış olacaqdır [3, s.11].

**Cədvəl 3.** Azərbaycan ərazisinə daxil olan Türkiyəyə məxsus yük avtomobilləri və avtobuslar haqqında 2012-2015-ci illər üzrə məlumat

| Ölkələr TR | Yük avtomobilləri | | | | | | | Cəmi | O cümlədən tranzit | Yükləmə "icazə"si tətbiq edilib | Cərimə | Sərnişin avtobusları | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kvota ilə | | BNF icazəsi ilə | Hum. və hökumət sərəncamı | "İcazə" tətbiq edilməklə giriş | | | | | | | Kvota ilə | Marşrut üzrə | Qeyri müntəzəm | | Cəmi |
| | Universal | III ölkə | | | Universal | III ölkə | Yüksüz giriş | | | | | | | "İcazə" tətbiq edilməyib | "İcazə" tətbiq edilib | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 2012 | 19818 | 1411 | 3230 | 175 | 42900 | 3999 | 21 | 71554 | 8932 | 1956 | 15 | | | | 2460 | 2460 |
| 2013 | 19907 | 2445 | 4044 | 107 | 39486 | 4003 | 160 | 70152 | 3601 | 1844 | 7 | | | | 2185 | 2185 |
| 2014 | 39779 | 1448 | 5701 | 22 | 16067 | 4195 | 109 | 67321 | 4297 | 875 | 3 | | | | 2478 | 2478 |
| 2015 IV ay | 11522 | 1669 | 1744 | 6 | 2851 | 592 | 120 | 18504 | 859 | 215 | 3 | | | | 837 | 837 |

Mənbə: Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin məlumatları.

Nəqliyyat vasitələrinin bu sayı yalnız müvafiq icazələr əsasında ölkə ərazisinə keçən nəqliyyat vasitələrinin sayını ifadə edir ki, bunlardan əlavə sərhəd-keçid gömrük məntəqələrində müvafiq rüsumları ödəyərək ölkə ərazisinə keçən nəqliyyat vasitələrinin sayı isə əlavə 42000 ədədə yaxın nəqliyyat vasitəsi təşkil edir. Bununla da ümumilikdə ölkə ərazisinə keçən nəqliyyat vasitələrinin sayı 100000 ədədə yaxın təşkil edir ki, bu da olduqca böyük say deməkdir.

Azərbaycan tərəfi - "Dövlət Rüsumu" haqqında Qanunda nəzərdə tutulmuş rüsumların yığılması baxımından, eyni zamanda Azərbaycan dövlət sərhədinin buraxılış məntəqələrində malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il 28 yanvar tarixli 14 nömrəli Qərarı ilə tənzimləndiyindən kvotanın tamamilə aradan qaldırılmasını məqsədəuyğun hesab etmir [5].

**Cədvəl 4.** Sərhəd keçid məntəqələrindən qarşılıqlı keçən Türkiyə və Azərbaycana aid nəqliyyat vasitələrinin sayı

| **İllər** | **Azərbaycana məxsus avtomobillər** | **Türkiyəyə məxsus avtomobillər (Azərbaycana gələn)** |
|---|---|---|
| 2010 | 263 | 43 766 |
| 2011 | 369 | 57 102 |
| 2012 | 230 | 71 554 |
| 2013 | 1 971 | 70 152 |
| 2014-cü ilin 7 ayı | 2 587 | 37 647 |
| o cümlədən | | |
| Kvota ilə ikitərəfli | 2 511 | 24 564 |
| Kvota ilə 3-cü ölkə | 76 | 1 417 |
| BNF-in “İcazəsi” ilə | - | 3 009 |
| Humanitar yardım | - | 10 |
| Kvotadan əlavə ikitərəfli | - | 6 720 |
| Kvotadan əlavə 3-cü ölkə | - | 1 841 |
| Yüksüz giriş | - | 86 |
| o cümlədən tranzit | - | 2 011 |
| **Sərnişin avtobusları (reys)** | - | 1 401 |

Mənbə: Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin məlumatları.

Türkiyə tərəfi, Türkiyə limanlarına gələn Azərbaycana ünvanlanan yüklərin milli avtodaşıyıcılarımız tərəfindən daşınması üçün 2013-cü ildə 200 ədəd əlavə "İcazə" blankı vermişdir. Hazırda bu növ "İcazə" blanklarının sayı Türkiyə tərəfindən artırılaraq hazırda 300 ədəd təşkil edir.

Azərbaycan ilə Türkiyə arasında beynəlxalq sərnişin daşımaları 9 ədəd Türkiyə tərəfinə məxsus sərnişindaşıma şirkətləri tərəfindən müntəzəm avtobus marşrutları vasitəsi ilə həyata keçirilir. Azərbaycan ilə Türkiyə arasında 2013-cü ilin 9 ayı ərzində "İcazə" tətbiq edilməklə 1604 sayda avtobus sərnişin daşınması yerinə yetirilmişdir. Ümumilikdə yerinə yetirilmiş 121778 ədəd reys üzrə 35082 nəfər sərnişin daşınmışdır. Əsas sərnişin daşımaları "Bakı-İstanbul-Bakı" müntəzəm avtobus marşrutu üzrə həyata keçirilir.

İki ölkə arasında beynəlxalq sərnişin daşımalarının daha da inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsi olduqca zəruridir. Hazırda ölkələrimiz arasında müntəzəm və qeyri-müntəzəm sərnişin daşımaları üzrə relslər həyata keçirilir.

Yeni avtobus marşrutlarının açılması üçün sərnişin axınının vəziyyətinin öyrənilməsi vacibdir. Eyni zamanda, sərnişin daşımalarını effektiv yerinə yetirən daşıyıcıların qarşılaşdıqları problemlərlə əlaqədar tədbir görülməsi üçün qarşı tərəfin dərhal məlumatlandırılması zəruridir. Azərbaycana məxsus qeyri-müntəzəm sərnişin daşımaları ilə

məşğul olan avtodaşıyıcıların Türkiyə sərhəd-keçid məntəqələrində süni maneələrlə rastlaşdıqlarının qarşısı tamamilə alınmalıdır. Türkiyə tərəfi bu məsələnin araşdırılmasını və həll edilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etməlidir.

Beynəlxalq avtomobil daşımaları üzrə iki ölkə arasında beynəlxalq sərnişin daşımalarının daha da inkişaf etdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi barədə razılığa gəlinməli və yeni sərnişindaşıma marşrutlarının açılmasına zərurət yarandığı halda lazımı tədbirlərin görülməsi məqsədəuyğundur.

Azərbaycan tərəfində hazırda Xəzər dənizində 3 ədəd Ro-ro gəmisi ilə daşımalar yerinə yetirilir və günlük daşıma həcminin 100 ədəd yük nəqliyyat vasitəsi təşkil edir. Eyni zamanda, ötən ilin 12 dekabr tarixindən əlavə bir ədəd Ro-ro gəmisinin işə başlaması ilədaşıma  həcmin 150 ədədə qaldırılacağı gözlənilir [9].

Hər iki ölkə arasında beynəlxalq avtomobil daşımaları ilə məşğul olan sürücülərin viza alınması zamanı müxtəlif problemlərlə qarşılaşmaları aradan qaldırılmalıdır. Sürücülər üçün viza alınması prosedurlarının sadələşdirilməsi və onlara uzunmüddətli viza verilməsi ilə bağlı hər iki ölkənin aidiyyəti qurumları  müvafiq razılıq əldə etməlidirlər.

Ölkələrimiz arasında imzalanmış beynəlxalq avtomobil daşımaları haqqında sazişə və mövcud beynəlxalq təcrübəyə əsasən avtomobil daşımaları fəaliyyətinin həyata keçirilməsi üçün ölkələrimizin səlahiyyətli qurumları tərəfindən Türkiyə və Azərbaycan avtodaşıyıcılarına uzunmüddətli vizalar verilir.

Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının (ABADA) və beynəlxalq avtomobil daşımaları fəaliyyəti ilə məşğul olan iri şirkətlərin məlumatlarına əsasən müəyyən olunur ki, son zamanlar Azərbaycan avtodaşıyıcıları Türkiyəyə daşımaları yerinə yetirmək üçün uzunmüddətli vizaların alınmasında çətinliklərlə üzləşirlər.

Belə ki, əvvəllər Azərbaycan avtodaşıyıcıları üçün vizaların alınması zamanı Türkiyənin sərhəd-keçid məntəqələrində ümumvətəndaş pasportunun təqdim olunması kifayət edirdisə, hazırda sürücülərə viza verilməsi prosesi Bakı şəhərində Türkiyənin Azərbaycandakı Səfirliyi tərəfindən həyata keçirilir və müəyyən sayda sənədlər istənilir. Nəticədə ölkəmizin avtodaşıyıcılarının Türkiyə-Azərbaycan avtonəqliyyat xidmətləri bazarında Türkiyənin avtodaşıyıcıları ilə münasibətdə rəqabətlilik qabiliyyəti xeyli azalır.

Bu məsələ, 2015-ci ilin 8-9 dekabr tarixlərində beynəlxalq avtomobil əlaqələri sahəsində Türkiyə-Azərbaycan Qarışıq Komissiyasının Ankara şəhərində keçirilmiş növbəti iclasında da tərəflər arasında müzakirə edilmişdir. Qarışıq Komissiyanın Protokolunda Tərəflər sürücülər üçün viza alınması prosedurlarının sadələdirilməsi və onlara uzunmüddətli viza verilməsi ilə bağlı, öz ölkələrinin aidiyyəti qurumları qarşısında vəsatət qaldırılması barədə razılıq əldə etmişlər.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan avtodaşıyıcılarına Türkiyəyə  beynəlxalq avtomobil daşımalarının həyata keçirilməsi üçün verilən uzunmüddətli vizaların alınması

prosedurlarının sadələşdirilməsi ilə bağlı, Türkiyə tərəfindən müvafiq işlərin görülməsi zəruridir.

Həmçinin, Azərbaycana məxsus daşıyıcılara qarşı Türkiyə ərazisində yanacaqla əlaqəli tətbiq edilən məhdudiyyətin Tərəflər arasında imzalanmış beynəlxalq avtomobil daşımaları haqqında Sazişin 18-ci maddəsinə uyğun olaraq həll edilməsi zəruridir. Hazırda, Türkiyədə bu məhdudiyyət bütün yerli və xarici nəqliyyat vasitələri üçün tətbiq edilir, tranzit daşımalarda isə nəqliyyat vasitəsinin yanacaq çəninin möhürlənməsi ilə bağlı bir məhdudiyyət mövcud deyildir [3], [13, s.55-71].

Həmçinin, Türkiyənin sərhəd-keçid məntəqələrində "İcazə" blanklarının istifadə edilməsi zamanı onların kod nömrələrinin sistemə düzgün daxil edilməməsi və bunun müxtəlif qeyri-müəyyənliyə səbəb olduğundan, bu amilin daşımalarda iştirak edən daşıyıcılar üçün maneələrə gətirib çıxardığını nəzərə alaraq, məsələnin həll olunması üçün Türkiyə tərəfindən aidiyyəti qabaqlayıcı tədbirlərin görülməsi zəruridir. Hazırda, cari ilin sonundan etibarən Türkiyə tərəfi bu məsələ ilə əlaqədar və ümumi olaraq gömrük elektron keçid baza sisteminin təkmilləşdirilmiş forması olan yeni "barkod" sisteminə keçiləcəyini planlaşdırır. Yeni sistemə keçid həm gömrük və sərhəd keçidlərində nəqliyyat vasitələrinin keçidlərində asanlaşdırmalara və baza məlumat mübadilələrində interaktivliyin sürətlənməsinə səbəb olacaqdır.

Azərbaycan tərəfində keçid rüsumlarının yüksəkliyi, sərhəd-keçid məntəqələrinin iş rejimi, "Qırmızı Körpü" və "Balakən" gömrük məntəqəsində uzunmüddətli gözləmələrin, ağırtonnajlı və iriqabaritli nəqliyyat vasitələri, təhlükəli yüklərin daşınması, sığortanın illik bağlanması barəsində yaranan çətinlikləri aradan qaldırılmasını təmin etməlidir.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş (maddə 24) Azərbaycan ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun tutulmasının xüsusiyyətlərinə görə Azərbaycan avtomobil daşıyıcılarına digər dövlətlərdə bu Qanunla müəyyən edilmiş dövlət rüsumundan əlavə dövlət rüsumu tətbiq edildikdə həmin ölkələrin avtomobil daşıyıcılarına eyni qaydada dövlət rüsumu tətbiq edilməlidir.

Azərbaycan avtomobil daşıyıcılarına digər dövlətlərdə bu Qanunla müəyyən edilmiş dövlət rüsumundan əlavə dövlət rüsumu tətbiq edildikdə həmin dövlətlərin avtomobil daşıyıcılarına eyni qaydada dövlət rüsumu tətbiq edilir.

Xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada 2016-cı ilin iyun ayının 1-dən etibarən 3 (üç) il müddətinə Cədvəl 5-də nəzərdə tutulmuş dövlət rüsumundan azaddır:

- Dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi son dəmir yolu stansiyasında yük avtomobillərinə, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinə yüklənərək ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda;

- Yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri ilə yüklər digər dövlətin ərazisindən Azərbaycan ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə daşındıqda.

**Cədvəl 5.** Azərbaycan ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| 24.1. Giriş-çıxış və tranzit gedişinə görə: | |
| 24.1.1. Azərbaycan Respublikasının avtomobil daşıyıcılarının başqa ölkələrə getməsi üçün: | |
| 24.1.1.1. yük avtomobil daşıyıcılarına görə | hər bir icazə üçün 20 ABŞ dolları |
| 21.1.1.2. sərnişin avtobusları üçün | hər bir icazə üçün 10 ABŞ dolları |
| 24.1.2. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda ödəniş haqqı: | |
| 24.1.2.1. yük avtomobilləri üçün | hər bir icazə üçün 100 ABŞ dolları |
| 24.1.2.2. sərnişin avtobusları üçün | hər bir icazə üçün 50 ABŞ dolları |
| 24.1.3. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün: | |
| 24.1.3.1. yük avtomobilləri üçün | hər bir icazə üçün 150 ABŞ dolları |
| 24.1.3.2. sərnişin avtobusları üçün | hər bir icazə üçün 75 ABŞ dolları |
| 24.2. Xarici avtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə | hər bir icazə üçün 100 ABŞ dolları |
| 24.3. Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün. | hər bir icazə üçün 600 ABŞ dolları |
| 24.4. Xarici nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün: | |
| 24.4.1. yük avtonəqliyyat vasitələrinin yüksüz daxil olması üçün | hər bir icazə üçün 350 ABŞ dolları |
| 24.4.2. avtobusların sərnişinsiz daxil olması üçün | hər bir icazə üçün 80 ABŞ dolları |
| 24.5. İri tonnajlı xarici yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinə daxil olması üçün | hər bir icazə üçün 25 ABŞ dolları |
| 24.6. Dövlətlərarası sazişləri pozan xarici avtomobil daşıyıcıları Azərbaycan Respublikası ərazisindən çıxdıqda | hər bir icazə üçün 400 ABŞ dolları |
| 24.7. Beynəlxalq Nəqliyyat Forumunun "İcazə"lərinin (Avropa Nəqliyyat Nazirlər Konfransı"nın jurnallarının) satışına görə:<br>24.7.1. atmosfer havasına atılan zərərli maddələr üzrə Avro-4 ekoloji normalara uyğun olan yük avtonəqliyyat vasitələri üçün etibarlılıq müddəti bir il olan "İcazə"lərin (jurnalların) | hər bir vahidinə görə 500 ABŞ dolları |
| 24.7.2. atmosfer havasına atılan zərərli maddələr üzrə Avro-5 və daha yüksək ekoloji normalara uyğun olan yük avtonəqliyyat vasitələri üçün etibarlılıq müddəti bir il olan "İcazə"lərin (jurnalların)<br>24.7.3. yük avtonəqliyyat vasitələri üçün etibarlılıq müddəti bir ay olan "İcazə"lərin (jurnalların) | hər bir vahidinə görə 300 ABŞ dolları<br>hər bir vahidinə görə 100 ABŞ dolları |

Mənbə: "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu.

**Beynəlxalq yük daşımalarını üçün Beynəlxalq təşkilatlar tərəfindən verilən zəruri sənədlər** [5], [7], [12], [13]**:**

1. Xarici ölkənin ərazisinə daxil olmaq üçün "İcazə" vərəqəsi, və ya tranzit keçid və 3-cü ölkədən/ölkəyə keçid üçün "İcazə" vərəqəsi;

2. BNF-nin çoxtərəfli "İcazə"si (Beynəlxalq Nəqliyyat Forumunun "İcazə"ləri (Avropa Nəqliyyat Nazirlər Konfransı"nın jurnalları);

3. Beynəlxalq Nümunəli Əmtəə Nəqliyyat Qaiməsi (CMR);

4. BYD kitabçası (TİR) - (2 il müddətinə Dövlət Gömrük Komitəsi tərəfindən avtonəqliyyat üçün verilir);

5. Taxograf kartları.

Türkiyədən Mərkəzi Asiya ölkələrinə (habelə Çinə) həyata keçirilən TIR daşımalarının Xəzər dənizindən tranzit keçidləri ilə bağlı məsələ ölkəmiz üçün tranzit daşımaların inkişafı baxımından olduqca önəmlidir.

Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin daha rəqabətqabiliyyətli və cəlbedici hala gətirilməsi, bununla da Azərbaycan ərazisindən keçməklə yerinə yetirilən beynəlxalq daşımaların daha da inkişaf etdirilməsi məqsədilə, ölkə ərazisindən daşınan yüklərin həcminin artımına təkan verə biləcək ciddi addımların atılması olduqca zəruridir.

Eyni zamanda, nəqliyyat dəhlizlərinin iş qabiliyyətini təmin edən müxtəlif nəqliyyat növlərinin qarşılıqlı əlaqələndirilməsinin zəruri olduğu qarışıq daşımaların inkişaf etdirilməsi olduqca vacibdir.

Bu məqsədlə, Bakı Limanı - Türkmənbaşı - Bakı xəttinin effektiv işləməsi üçün Türkiyə - Gürcüstan - Azərbaycan - Türkmənistan marşrutu boyunca yük axınının ciddi artımına təkan verə biləcək beynəlxalq avtomobil yük daşımalarının asanlaşdırılması və inkişaf etdirilməsi təmin olunmalıdır [15], [16].

Avropadan Mərkəzi Asiyaya və əksinə beynəlxalq avtomobil yük daşımalarının Azərbaycan Respublikasından keçən marşruta daha böyük həcmlərdə cəlb edilməsi məqsədilə, beynəlxalq avtomobil daşımalarının asanlaşdırılması və inkişaf etdirilməsi Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin daha da artmasına, bu sahədən ölkəmizə əlavə gəlirlərin daxil olmasına və daşıma fəaliyyətlərinin (nəqliyyat dəhlizinin) səmərəliliyinin artmasına şərait yaradacaqdır.

Mövcud şəraitdə Bakı Limanından yola düşən gəmilərin (yük və Ro-Ro daşıma) aşağı doluluq səviyyəsində çalışmalarının əsas səbəbi məhz, yük avtomobilləri tərəfindən daşımaların həcminin yetərli səviyyədə olmamasıdır.

Şərq-Qərb və yaxud Trans Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TXBNM) Çin – Qazaxıstan – Xəzər Dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə və/və yaxud Qara Dəniz – Avropanı əhatə edir.

Bu nəqliyyat marşrutu – Çindən Orta Asiyaya, Xəzər regionuna, Türkiyəyə və eləcə də Avropa ölkələrinə və əks istiqamətdə yük daşımalarının artırılmasına xidmət edir. Nəqliyyat

dəhlizinin idarə olunması və inkişaf etdirilməsi, yaradılmış müvafiq Konsorsiumun üzvləri tərəfindən həyata keçirilir.




**Şəkil 1.** Şərq-Qərb və yaxud Trans Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TXBNM).

Konsorsiumun üzvləri Çində-Çin Dəmir Yolları, Qazaxıstanda-KTZ Ekspress, Xəzər dənizi üzrə Xəzər Dənizi Gəmiçiliyi, Azərbaycanda-ADY Ekspress, Gürcüstanda-Trans Qafqasus Terminals Şirkətləridir. Bu dəhliz üzrə hərəkət edən yüklər orta hesabla 10-12 günə Çindən Avropaya çatdırılır. Bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. Lakin, sözügedən beynəlxalq nəqliyyat dəhlizi üzrə əsas daşımalar məhz avtomobil nəqliyyatı ilə yerinə yetirilir [7].

Avrasiya İpək Yolu ideyası hazırda Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi-TRASEKA-da öz təzahürünü tapmışdır. TRASEKA dəhlizi ilə nəqliyyat axını ilbəil artır. TRASEKA-nın məqsədi yalnız xüsusi iqtisadi maraqlarla məhdudlaşmır, o, həm də zəngin tarix və mədəniyyətin gələcək üçün qorunub saxlanmasını təmin edir. TRASEKA ərazisindən keçdiyi ölkələrin iqtisadi inkişafının ayrılmaz hissəsi olmaqla yanaşı, eyni zamanda qarşılıqlı inteqrasiya və səmərəli əməkdaşlıq üçün güclü bir alətdir.

Qeyd olunanlarla yanaşı, Türkiyədən Mərkəzi Asiya ölkələrinə həyata keçirilən TIR daşımalarının Azərbaycan üzərindən (Xəzər dənizindən) tranzit keçidləri ilə əlaqədar, Azərbaycan, Türkiyə və Türkmənistanın aidiyyəti qurumlarının iştirakı ilə müvafiq üçtərəfli razılaşmanın (Sazişin) hazırlanmasını və qaldırılan məsələlərin operativ şəkildə birgə müzakirə edilməsini məqsədəuyğun hesab edirəm. Eyni zamanda, Türkiyə Nəqliyyat,

Dənizçilik və Kommunikasiya Nazirliyinin Azərbaycan və Xəzər dənizindən keçməklə Türkmənistanla Mərkəzi Asiya istiqamətində yük daşımalarının artırılması haqqında istəkləri nəzərə alınmalıdır.




**Şəkil 2.** Tarixi İpək Yolu, Xəzər keçidi.

**Nəticə.** Mövcud şəraitdə Türkiyə avtodaşıyıcılarına zəruri köməklik göstərilməsi məqsədilə, 2018-ci il üçün və daha sonrakı illər üçün "İcazə"lərin kvota sayının mərhələrlə artırılmasını və "İcazə" blanklarının kontingentinin aşağıdakı qaydada müəyyən edilməsi təklif edirəm:

- ikitərəfli daşımalar, giriş, çıxış və tranzit keçid üçün - 65000 ədəd;
- 3-cü ölkəyə/ölkədən daşımalar üçün - 10000 ədəd;
- o cümlədən Türkiyə limanlarından daşımalar üçün - 1500 ədəd.

Eyni zamanda, ölkələrimiz arasında mövcud daşıma potensialından tam faydalanmaq, daşıyıcılar üçün inzibati maneələri aradan qaldırmaq və ölkələrimizin tranzit imkanlarının daha da artırılması məqsədilə, sözügedən "İcəzə"lərin sayının artırılmasına və ölkələrin daşımalar sahəsində siyasətlərinə uyğun olduğu halda bu icazələrin mübadiləsinin tədricən aradan qaldırılmasına çalışılmalıdır.

Ölkələrimiz arasında beynəlxalq avtomobil daşımalarında Azərbaycan daşıyıcılarının da sayının artması üçün müvafiq imkanların yaradılmasının vacibliyini nəzərə alaraq, bunun üçün həm hüquqi müstəvidə, həm inzibati idarəetmə istiqamətində, eyni zamanda daşıyıcı operatorların maddi-texniki bazalarının və avtonəqliyyat parklarının inkişaf etdirilməsi ilə bağlı müvafiq proqramlar işlənilməli və milli daşıyıcılarımızın imkanlarının artırılmasına dəstəyin tam təmin olunmasına çalışılmalıdır.

Azərbaycanın beynəlxalq avtomobil daşımaları sisteminə daha sıx inteqrasiyası və bu sahədə ölkəmizin rolunun artırılması, milli avtodaşıyıcılarımızın inkişaf etdirilməsi və beynəlxalq avtonəqliyyat xidmətləri bazarında xüsusi çəkisinin artırılması, habelə Azərbaycan ərazisindən keçən tranzit nəqliyyat dəhlizlərinə yeni yük axınlarının cəlb edilməsi istiqamətində əlavə bir sıra tədbirlərin görülməsinin təmin edilməsi məqsədilə, yalnız kvota çərçivəsində paritet əsaslarla mübadilə edilən icazələrlə yerinə yetirilən beynəlxalq daşımaların (tranzit daxil olmaqla) pullu avtomobil yollarından və körpülərdən keçid haqqı istisna olmaqla, yollardan istifadəyə və onların saxlanılmasına görə vergi və rüsumlardan azad olunmaları nəzərdə tutulmalıdır.

Azərbaycan ilə Türkiyə arasında beynəlxalq avtomobil əlaqələrinin inkişafı, beynəlxalq daşımalarının təşkili, beynəlxalq daşımaların həyata keçirilməsində səmərəli tədbirlərin görülməsinin təmin edilməsi, həmçinin daşıma proseslərinin sadələşdirilməsi və sürətləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi, nəqliyyat sahəsində birgə fəaliyyətin prioritet istiqamətlərinin və əməkdaşlığın yeni imkanlarının müəyyən edilməsi və ölkələrarası avtomobil əlaqələrinin inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin yerinə yetirilməsi olduqca zəruridir.

Türkiyə limanlarından Azərbaycan Respublikasına ünvanlanan yüklərin daşınması üçün Azərbaycan daşıyıcılarına verilən "İcazə" blanklarının sayının artırılması, müxtəlif səbəblərdən asılı olaraq Azərbaycan daşıyıcılarının bu daşımalardakı üzləşdikləri çətinliklərin aradan qaldırılması vacibdir. Azərbaycan avtodaşıyıcıları tərəfindən bu icazələrdən 10% istifadə edilməsi mövcud daşıma potensialı ilə uzlaşmır. Ölkələrimiz arasında ticarət, iqtisadi və daşıma əlaqələrinin inkişaf etdiyi hazırkı şəraitdə milli daşıyıcılarımızın bu daşımalardakı rəqabətqabiliyyətliliklərі artırılmadır.

Məqalədə irəli sürülən təkliflər milli avtodaşıyıcılarımızın qeyd olunan daşımalarda iştirakı üçün daha əlverişli şəraitin yaradılmasına, Avropa-Qafqaz-Asiya "TRASEKA" Beynəlxalq Nəqliyyat Dəhlizinin Trans-Avropa Şəbəkələri ilə optimal inteqrasiyasının dəstəklənməsinin təmin edilməsinə, Avropadan Mərkəzi Asiyaya və əksinə beynəlxalq avtomobil yük daşımalarının Azərbaycandan keçən marşruta daha böyük həcmlərdə cəlb edilməsi ilə Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətinin daha da artmasına, habelə bu sahədən ölkəmizə əlavə gəlirlərin daxil olmasına və daşıma fəaliyyətlərinin (nəqliyyat dəhlizinin) səmərəliliyinin artmasına şərait yaradacaqdır.

Asiyadan Avropaya daşınan yüklərin böyük bir hissəsinin Çin Xalq Respublikasına məxsus yüklərin təşkil etdiyini və bu yüklərin böyük bir hissəsinin Çin - Qazaxıstan - Türkmənistan - Azərbaycan - Türkiyə marşrutu üzrə ölkəmizə daxil olmasını nəzərə alaraq, Azərbaycan və Türkiyə arasında beynəlxalq avtomobil əlaqələrinin və avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaların daha da inkişafı üçün bütün mümkün imkanlar yaradılmalı, dövlətlərin hökumətləri tərəfindən müvafiq asanlaşdırıcı tənzimləmələr həyata keçirilməlidir.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı.
2. Azərbaycanın statistik göstəriciləri, ADSK, Bakı, 2016.
3. Çanci M., Erdal M., (2009) Lojistik Yönetimi, Uluslararası Taşımacılık ve Lojistik Üretenleri Derneği Yayınları, Mataş Matbaacılık, 3-cü Baskı, İstanbul, 353 s.
4. http://docplayer.biz.tr/789328-Uluslararasi-tasimacilik-yonetimi.html
5. http://e-qanun.az/
6. http://referat.ilkaddimlar.com/d_word_refe_trnsp_1732.
7. http://wvvw.adyexpress.az/az/n%C9%99qliyyat-d%C9%99hlizl%C9%99ri/s%C9%99rq-q%C9%99rb
8. http://www.ijar.lit.az/economics.php?go=jee-feb2011
9. http://www.stat.gov.az/
10. http://www.utikad.org.tr/kitap.asp
11. https://az.wikipedia.org
12. https://tr.wikipedia.org
13. Karayolu ile Uluslararası Eşya Taşıma Hukuku ve CMR, Muktedir Lale, Adalet Yayınları, 2015, 1342 səh. (http://www.idefix.com/Kitap/Karayolu-ile-Uluslararasi-Esya-Tasima-Hukuku-ve-CMR/Egitim-Basvuru/Is-Ekonomi-Hukuk/Hukuk/urunno=0001709469001)
14. Rəhimov Ç.H., Böyük şəhərlərdə avtomobil sərnişin daşımalarının təşkili keyfiyyətinin sistemli idarə edilməsinin elmi əsaslarla işlənməsi, Namizədlik dissertasiya işi, Azərbaycan Texniki Universiteti.
15. Şahin G., Sipahioğlu A., (2013) Uluslararasi lojistik, T.C. Anadolu Üniversitesi yayini, No.2625, Anadolu Üniversitesi, Eskişehir.
16. www.ijar.lit.az, International Journal of Academic Research (Beynəlxalq Elmi Araşdırmalar Jurnalı).